Azərbaycan xalqı özünün çoxəsrlik dövlətçilik ənənələrini davam etdirərək, "Azərbaycan Respublikasının dövlət müstəqilliyi haqqında" Konstitusiya Aktında əks olunan prinsipləri əsas götürərək, bütün cəmiyyətin və hər kəsin firavanlığının təmin edilməsini arzulayaraq, ədalətin, azadlığın və təhlükəsizliyin bərqərar edilməsini istəyərək, keçmiş, indiki və gələcək nəsillər qarşısında öz məsuliyyətini anlayaraq, suveren hüququndan istifadə edərək, təntənəli surətdə aşağıdakı niyyətlərinibəyan edir:

- Azərbaycan dövlətinin müstəqilliyini, suverenliyini və ərazi bütövlüyünü qorumaq

- Konstitusiya çərçivəsində demokratik quruluşa təminat vermək;

- vətəndaş cəmiyyətinin bərqərar edilməsinə nail olmaq;

- xalqın iradəsinin ifadəsi kimi qanunların aliliyini təmin edən hüquqi, dünyəvi dövlət qurmaq;

- ədalətli iqtisadi və sosial qaydalara uyğun olaraq hamının layiqli həyat səviyyəsini təmin etmək;

- ümumbəşəri dəyərlərə sadiq olaraq bütün dünya xalqları ilə dostluq, sülh və əmin-amanlıq şəraitində yaşamaq və bu məqsədlə qarşılıqlı fəaliyyət göstərmək.

Yuxarıda sadalanan ülvi niyyətlərlə ümumxalq səsverməsi - referendum yolu ilə bu Konstitusiya qəbul edilir.

## MÜNDƏRİCAT


**BİRİNCİ BÖLMƏ: ÜMUMİ MÜDDƏALAR**

I fəsil. XALQ HAKİMİYYƏTİ

II fəsil. DÖVLƏTİN ƏSASLARI

**İKİNCİ BÖLMƏ: ƏSAS HÜQUQLAR, AZADLIQLAR VƏ VƏZİFƏLƏR**

III fəsil. ƏSAS İNSAN VƏ VƏTƏNDAŞ HÜQUQLARI VƏ AZADLIQLARI

IV fəsil. VƏTƏNDAŞLARIN ƏSAS VƏZİFƏLƏRİ

**ÜÇÜNCÜ BÖLMƏ: DÖVLƏT HAKİMİYYƏTİ**

V fəsil. QANUNVERİCİLİK HAKİMİYYƏTİ

VI fəsil. İCRA HAKİMİYYƏTİ

VII fəsil. MƏHKƏMƏ HAKİMİYYƏTİ

VIII fəsil. NAXÇIVAN MUXTAR RESPUBLİKASI

**DÖRDÜNCÜ BÖLMƏ: YERLİ ÖZÜNÜİDARƏETMƏ**

IX fəsil. BƏLƏDİYYƏLƏR

**BEŞİNCİ BÖLMƏ: HÜQUQ VƏ QANUN**

X fəsil. QANUNVERİCİLİK SİSTEMİ

XI fəsil. AZƏRBAYCAN RESPUBLİKASININ KONSTİTUSİYASINDA DƏYİŞİKLİKLƏR

**XII fəsil. AZƏRBAYCAN RESPUBLİKASININ KONSTİTUSİYASINA ƏLAVƏLƏR**

KEÇİD MÜDDƏALARI